# A.ŞAİQİN "UŞAQ VƏ DOVŞAN" ŞEİRİNİN POETİKASI



Allahverdi EMİNOV

Abdulla Şaiqin uşaqlar üçün yazdığı şeirlərini M.Ə.Sabir və A.Səhhətin əsərlərindən bədii-estetik baxımdan ayırmaq istəməzdim: Konkret desək bu, bəzi obyektiv səbəblərlə bağlıdır: Birincisi, istedaddır, poetik şücaətdir. İkincisi, uşaq psixologiyasını mükəmməl bilməkdir, o kövrək aləmə bələd olmaqdır. Üçüncüsü, məktəblə, dərsliklə işləməkdir. Və daha digər amillər də yox deyildir. Abdulla Şaiq müasirlərinin yaradıcılığından yaxşı mənada bəhrələnmişdir, lakin M.Ə.Sabir və A.Səhhətdən fərqli cəhətlərə malikdir: Birincisi o, professional uşaq şairidir (şərti mənadadır) və onlarla bir-birindən seçimli şeirlər yazmışdır. İkincisi sərištəli və yenə də peşəkar pedaqoq, dərslik müəllifidir. Üçüncüsü uşaq (şagird) psixologiyasını elmi baxımdan mükəmməl mənimsəmişdir. Bəlkə "üçüncü"dən başlayaq? Daha doğrusu, bədii mətnin məktəbliyə təsir dairəsini nəzərə almışdı: Təsvir obyektinin reallığı, əyaniliyi; ana dilinin təmizlik, lakoniklik kontekstində mənimsənilməsi; uşağın təbiət hadisələrini müşahidəsilə onun təfəkkürünün inkişafı. Bu "üçlük" - "triada" sadə məsələ deyildi, tədrisdə, öyrənmədə çox əhəmiyyətli pedaqoji problem olaraq indi də qalır Əlbəttə, bütün bu sadaladığım poetik istedadın yoxluğunu ödəmir, elə isə söykənəcəyim dünya şöhrətli rus pedaqoqu K.D.Uşinski barı, bir tutarlı uşaq şeiri yazıb yadigar qoyardı!..

Abdulla Şaiq şeirlərində klassiklərdən fərqli olaraq uşaq, məktəbli obrazlarını humanist planda təsvir etmiş və buna üstünlük vermişdir ki, səbəblərini daha aydın görürdü: Klassiklərin "uşaqları" bir xeyli sərt, hazırcavab, sözünü deyəndisə, A.Şaiqin "uşaqları" insanla ünsiyyət bağlamağı xoşlayan heyvanlarla dialoqa girirlər. Bu, şairə imkan verirdi ki, həmin cocuqlar o heyvanlara yaxınlaşsınlar, dostluq etsinlər. Lakin A.Şaiqin bütün uşaq şairlərindən mühüm yaradıcılıq fərqliliyi ondadır - heyvanları şəxsləşdirir, obrazlarını yaradırdı. Bu keçid vasitəsilə humanist fikirləri əyaniləşdirir.

Ötəri paralel aparaq: "Xoruz", "Keçi" (və "Yetim cücə") - bu şeirlərdə müxtəlif heyvanları uşaqlara təqdim edir. Uşaqlıq yaddaşımızın əbədi "qonağı" olan Xoruz tezdən durur və banlayır - bu heyvanın - quşcuğazın adətidir. Bu cəhətini onun əlindən almaq qeyri-mümkün təşəbbüsdür. Amma banlamağı ilə öyünən xoruzun rəqibi çıxır: Yatmağı sevən, bəlkə də gec oyanan tənbəl bir uşaq. Bu cocuq böyüklərin irad tutmadığı Xoruzun səhər erkən banlamasına - rəğmən etirazını gizlətmir. Əgər o, birbaşa narazılığını bildirsəydi: bəsdir, qoy yataq da - şeir ritorik yükün altından çıxmazdı. Uşaq humanist, obyektiv xasiyyətlidir ki, əvvəlcə xoruzu tərifləyir.

*Ay pipiyi qan xoruz,*
*Gözləri mərcan xoruz!*

Artıq xoruz zahirən təqdim və təlqin olunur (xoruza) ki, bu gözəlliklə niyə pis vərdişin var, çox tezdən durursan, adamı yatmağa qoymursan.

*Sən nə tezdən durursan,*
*Qışqırıb banlayırsan.*
*Qoymayırsan yatmağa,*
*Ay canım, məstan xoruz.*

Maraqlıdır, şeirdə "can" və "məstan" sözlərinə rast gəlirik. Qanda - qırmızı rəngdə bir üsyankarlıq çaları mövcuddur; məstanda - bir xoşallanma, xumarlanma elementi vardır. Həqiqətən də xoruz toyuqlar cinsində şax-dik duran, əsəbi, rəqibinə parlaq gözlərilə baxan bir heyvandır. Amma bir azca qida tapanda həlimləşir, yeməyə səsləyir və qürurla özünü meyxoş, məstanə kimi nəzərə çarpdırır. Abdulla Şaiq digər şeirində xoruzdan fərqli dəcəl, sürünün qabağında sakit getməyən qoşa buynuzunu daşa-ağaca ilişdirən keçi obrazını təsvir etmişdir. Şair analoji keçinin özünəməxsus görünüşünü verir:

***Ala-bula, boz keçi,***
***Ay qoşa buynuz keçi!***

Və belə təqdimatdan sonra yenə analoji (xoruzu nəzərdə tuturuq) keçinin öz başına bəlalar gətirə biləcək xasiyyətini deyir; xüsusilə tək gəzməyi xoşlamasını:

***Yalqız gəzib dolanma,***
***Dağa-daşa dırmanma -***

bu sos-xəbərdarlıq o deməkdir ki, tənhalıq pis əlamətdir, kömək olmasa ölüm, fəlakətdir. Yəni, ay keçi, insan da tənha gəzməməli, yaşamamalıdır, mən bunu müşahidə etmişəm ki, sənə deyirəm. Məsələn, sən keçi:

***Bir qurd çıxsa qarşına,***
***Sən nə edərsən ona?***
***Çoban açınca gözün,***
***Qalar iki buynuzun.***



Son iki misrada uşağın daha bir xarakteri nəzərə çarpır: Sən özünü ölüm qabağına çıxarma, çobanın yanından aralanma, qurd elə bir vəhşi heyvandır ki, çoban özünü yetirincə iki buynuzun sürüyə yadigar qalar!

Abdulla Şaiq tədrisdə müəyyən prinsiplərdən xəbərdardı, xüsusiyə Y.A.Komenskinin, K.D.Uşinskinin təlimin qarşısında qoyduğu nəzəri və praktik müddəaları. Eyni zamanda müvafiqliyi. Hər iki şeirində (eləcə də danışacağım "Uşaq və dovşan"da) uşaqlara o məlumatı, biliyi verməyin tərəfdarıdır ki, uşaqlar üçün elmi eybəcər şəklə salmaq lazım deyil və K.D.Uşinski göstərirdi ki, mən heç vaxt hər hans ıbir elmdən uşaqlar tərəfindən nəinki başa düşülə bilən, eyni zamanda dünyagörüşünü aydınlaşdırmaq, yaxud onun zehnini, nitqini təmrin etmək üçün zəruri məlumatı onlara verilməsini inkar etmirəm: Gəlin, etirafımızı gizlətməyək ki, şairlik fitrəti hələ məzmunsuz şeir yazmağa cavabdehlik daşımır. Bu kimi pedaqoji aksiomlardan bixəbər şairlərdir ki, balalarımız üçün 70-80 ildir - "Uşaq və buz", "Xoruz", "Cücələrim", "Ayı və Şir", "Keçi", "Uşaq və dovşan" səviyyəli bir şeir belə qələmə almağı bacarmamışlar!

Abdulla Şaiq yuxarıda vurğuladığımız kimi, "Uşaq və dovşan" şeirində Uşaq obrazını təsvir etmişdir. Bu uşaq da Sabirin Uşaq obrazı ilə bir mühitdə yaşayır və məktəbə gedir. Hər ikisi kənd cocuğudur, gördükləri texnika yox, xoruzdur, toyuqdur, keçidir, alabaşdır, dovşandır və sairədir. Və bu heyvanlarla ünsiyyətdə, müşahidədə xarakterləri açılır. Sən demə, onlar heyvanlara qənim kəsilmirlər, ovlamaq istəmirlər, daş atmırlar; əksinə, həyatda onlara bəlli fəsadlardan uzaqlaşmağa çağırırlar.

Dovşan həm ev, həm də çöl heyvanıdır, çox məzlum, qorxaq, səksəkəli yaşayır. Göyün yeddi qatında bir çalağan görsə belə, zəif ürəyi titrəyir, elə olur hətta infarkt keçirir. Deməli, dovşan heç bir canlıya, insana da etibar eləmir, inanmır. Çün, bu xüsusiyyət onun varlıq davranışından irəli gəlir. Uşaq bəlkə də heyvancığazın belə xasiyyətindən xəbərsizdir. Yoxsa o deməzdi:

***Dovşan, dovşan, a dovşan!***
***Qaçma dayan, a dovşan!***

Bu dəfə Uşaq dovşanı boynu bükük, qulağını şeşələdən halda görmür və bu vəziyyəti güman ki, təsəvvür eləməzdi. Dovşan əksinə, onu görcək qaçmağa üz tutur. Bu isə ilk növbədə qorxu ilə bağlıdır. Bəllidir ki, qorxu dində 3 insan impulsundan biridir və ehtiraslara daxildir. O da faktdır ki, tərbiyə tarixində qorxunu aradan qaldırmaq üçün sistem yaratmağa cəhd göstərilsə də, hələlik bu sistemin mexanizmi yoxdur. Amma ən yaxşı üsulu uşağa xeyirxahlıqla yanaşmaqdır. Uşaq təşəbbüskarlığını üzə çıxarmaqdır. Bax, Abdulla Şair şeirində belə bir təşəbbüsdə bulunur:

***Qaçma səni sevəndən,***
***Can kimi bəsləyəndən.***

Dovşan belə məqamlarda, hansı ki, Uşaqdan qorxur və nə bilsin onun ürəyi təmizdir, şəxsi marağından uzaqdır və s. Məhz intiutiv olaraq dovşan belə hissi duyursa, uşağa nifrət bəsləmir.

Abdulla Şaiqin psixoloqluğu bir də ondadır - ümumiyyətlə, canlı varlığı nifrət hissindən qorumağa, çəkindirməyə çağırır və bunu uşaqlara zərif, inandırıcı, müşahidə zəminində aşılayır. Şair oxucusuna, xüsusilə tərbiyəçiyə, müəllimə pıçıldayır ki, qorxudan doğan nifrət hissindən qorunmaq üçün bəzi nüanslara diqqətli olmaq gərəkdir: 1) Paxıllıq və həsəd hissini yaradan şəraitə imkan verilməməlidir. 2) Böyüklərin hərarətli sevgisi duyulmalıdır. 3) Təbii fəallığa öyrədilməlidir, alışdırılmalıdır

Uşaq öz sevgisini - istəyini bildirir və hələlik ilk dialoqda bunu rəva görür. A.Şaiq bu bədii məqamla uşağın fikrini oyatmağa, müstəqil sözünü deməyə, danışmağa təhrik etmək üçün dovşanı predmet seçmiş və uşağın ruhunda, canında olan hazır obrazlar üzərində məqsədini vermişdir. Dovşan daha öz digər həmcinslərindən fərqlidir, sadəlövh deyildir, aldatmaq çətindir. Halbuki uşaq öz niyyətindən irəli gələrək yanıldığını görür. Dovşan:

***- Dura bilmərəm, dadaş!***
***Yanında var alabaş.***
***Xəbərdaram işindən,***
***Qurtarmaram dişindən.***

Dovşan obrazı Buz obrazından bu prosesdə seçilir xaraktercə: Əgər buzda mənfi xüsusiyyətlər vardısa, uşağı yıxmaq xasiyyətliydisə, Dovşan elə deyil. Uşağa inamsızlıq göstərmir, pis münasibətini bildirmir; sadəcə olaraq Alabaşdan şübhələnir, hər halda itdir, ətyeyəndir və onu da həzmdən keçirər. Alabaşın şəkərindər xəbərdardır.

Abdulla Şaiq bir pedaqoq kimi belə bir tezisi fəaliyyətində nəzərə almışdır ki: uşaq formalarla, boyalarla, səslərlə, bir sözlə, duyğularla düşünür; əksini fikirləşən və bu "əksə" zorən məcbur edən şəxs böyük səhvə yol vertr.

"Uşaq və dovşan" şeirinin poetikasının dərinliyinə varmaq, sadəcə müqayisələri aparmaqla mətləbi daha aydın təsəvvür etmək mümkündür.

A.Şaiq poetik sənətkarlığı ön plana çəkməklə kifayətlənmir, uşaqların tərbiyəsində başlıca məqamları diqqətdə saxlayır. Əsası ondadır, azəritürk uşaqları sağlam gendən törəyənlər və ağıllı valideynlərdən tərbiyə alanlardır. Bir maraqlı cəhəti xüsusi fərqləndirərdik ki, XIX əsrin sonlarında, XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik geniş vüsət alanda, o biri yandan çarizmin şovinist siyasətinin məktəbə müdaxiləsində M.Ə.Sabir və A.Səhhət kimi klassik uşaq şeirləri yazan şairlərdən geri qalmamışdır və hətta rus şairlərinin öz uşaqları üçün yaza bilmədiyi poetik əsərlər ortaya qoymuşdur. Cəsarətlə deyərdim ki, A.Şaiqin "Uşaq və dovşan" (və daha digərləri) şeiri dünya uşaq poeziyasının nadir incisi sayılmağa layiqdir.